

## BƏXTİYAR ABBAS İNTİZAR

### *AĞZINDADI*

Ümidlər asılıb, səmada qalıb,
Bulud arxasında, Ay ağzındadı.
Hələ də çatılmaz arzu-murazlar,
İllər bətnindədi, ay ağzındadı.

Qaçdı ayaq altdan, neçədi balı?
İtirdi bu dünya bəxti, iqbalı.
Hikmətli söhbətin şərbəti, balı,
Şairlər üçündür, ayağzındadı.

Yanmaya ömürlər eşqə dalınca,
Qayıtma keçmişə, boylan, dal incə.
Getmişdim dirilik suyu dalınca,
Dedilər sahibi ay Ağ Zındadı.

### *İNSAN ƏTİ*

Bərkiyib zamanın üzü,
Əyilmir, qardaş, əyilmir.
Tərifl ənir zülmükarlar,
Söyülmür, qardaş, söyülmür.

Yaltaqlıq olub sədaqət,
Yalançılıq böyük sənət.
Uca kürsüdən həqiqət
Deyilmir, qardaş, deyilmir.

Hamı gözümdə məzəli,
İmanlar tökür xəzəli.
Çuxanın, donun gözəli
Geyilmir, qardaş, geyilmir.

Hər sözdən duyulmur ətir
Bəxtiyar, öz payın götür.
Bahalaşıb insan əti
Yeyilmir, qardaş, yeyilmir.

### *BAŞLAYACAQ...*

Yaxşı olacaqdır səninçün hər şey,
Qəşəngcə toyun da başlayacaqdır.
İşıq da olacaq, qaz da gələcək,
İçməyə suyun da başlayacaqdır.

Yolları çox cızıb, çox da çəkib göz,
Çoxdan deyilibdi ən sonuncu söz.
Yazın yaz gələcək, payızın payız,
Adam tək yayın da başlayacaqdır.

Düşmən dərin qazıb sənə bu quynu,
Cəhənnəm görünür Vətənin qoynu.
Qurtarıb həm bəylik, həm xanım oynu,
Dediyin oyun da başlayacaqdır.

### *GÖRƏSƏN*

Neçə kərə adım keçib Qurandan,
Ayrı düşdük Türküstandan, Turandan.
Qoparıldıq Arazüstü Arandan,
Torpaq bizi götürəcək görəsən?

Cəddlərimiz aşıb gəldi dənizlər,
Miras yazıb tarixlərə qan izlər.
İndi qəbri üstə gəzir donuzlar,
Torpaq bizi götürəcək görəsən?

Satılmışıq, qalmayıbdı bir dəyə,
Ümidləri bağlamışıq müjdəyə.
Alınları qoymayırıq səcdəyə,
Torpaq bizi götürəcək görəsən?

## SIRIYIR

Günün kölgəsində tarix bizlərə,
Zor ilə, güc ilə palan sırıyır.
Pinəçi ya qaçıb, ya öldürülüb,
Bizi bəlalara salan sırıyır.

Xeyirsiz əkində-biçində, fəqət,
Küylə gəliişində, köçündə, fəqət,
Bu boyda mal-mülkün içində, fəqət,
İynəni düşməndən alan sırıyır.

Dillərdə yarandı yeni bir məsəl,
Hamı haqqı gəzir düşüb əlbəəl,
Kifirdən düzələn yekə bir gözəl,
Şübhənin üstünə yalan sırıyır.

## ÜÇÜN

Şeir yazacaq qələm
Xəlq olub varaq üçün.
Uzanan tellər, saçlar
Nazlanır daraq üçün.

Çıxıbdır haqqın gözü,
Haqq deyil haqqın özü.
Deyilmir sözün düzü,
Deyilir maraq üçün.

Bir sehrli alma da,
Bizi vecə almadı.
Nöyütümüz qalmadı
Axşama çıraq üçün.

Dərdə sarı gəlmədik,
Qəm-qüssəni bölmədik.
Yaraq ola bilmədik,
Qın olduq yaraq üçün.

## MÖVLAM MƏNİM

Bu torpaqda bu ürəklə
Hər yan olub qibləm mənim.
Dağ aranım, aran dağım,
Qışlaq belə yaylam mənim.

Bu qərib qəmi gözləyir,
Bir vüsal dəmi gözləyir.
Bu torpaq məni gözləyir,
Ki, çalınsın laylam mənim.

Aşiqəm, tənha canımda,
Bu bişimdə, bu yanımda.
Hər vaxt İntizar anımdı,
Gələ çıxa Mövlam mənim.

## MƏLƏK TELİ

Yenə məlhəm yuxudayam -
Gəncliyim geri yollanır.
Yolum üstə ülkər çıxır,
Döyükür, yanaq allanır.

Ədasıyla savab verir,
Üz yumağa gülab verir,
Soruşuram, cavab verir,
Ağzı-dodağı ballanır.

Böyüdüyüm qərib yerlər
Bəxtiyarı qonaq eylər.
Həsrət qaldığım şeirlər
Mələk telində sallanır...

## GÖZƏLLƏRİ

Bağrım üstə bitib mənim
Qəmin, ahın gözəlləri.
Çəkir ürəyimi xəlvət
Bir günahın gözəlləri.

Açılmır gözlərim, baxım,
Aman vermir candan çıxım.
Səcdə üstə gəlir yuxum,
Sübh-sabahın gözəlləri.

Bəxtiyaram, oldum şəksiz,
Qalmışam əlsiz, ətəksiz.
Məni dəli edəcəksiz,
Ey Allahın gözəlləri.

## NEYNİRƏM

Dəyərlərdə saxtalaşan, dəyişən,
Özgələşən gül-bülbülü neynirəm.
Bərbərlərdə makyaj olub daranan,
Rəng dəyişən dul bülbülü neynirəm.

Həqiqətin gözlərinə ağaran,
An içində həşir olan dağ-aran,
Fəxri ada harda gəldi bağıran,
Fitnə üçün lol bülbülü neynirəm.

Mənim üçün bir cüt ağlar göz gəlsin,
Yanğınları ürəyimlə düz gəlsin.
Məclisimə şeir gəlsin, söz gəlsin,
Qəfəslənmiş lal bülbülü neynirəm.